Правильная организация физического воспитания в детстве имеет болшое значение в подготовке всесторонне развитого совроменного человека.

Теория физического воспитания основана на активном влияний внешней среды на физическое развитие ребенка, доказывает многоранность влияния внешней среды на показатели физического развития.

Таким образам, физическое воспитание обеспечивает здоровый и сильный рост дошкольников, прививает им двигатьные навыки, необходимые для жизни, готовит их к трудовой жизни и защите родины.

***Rəyçi: Bədən tərbiyəsi və idman kafedrasının b/m Haqqverdiyev İlqar Arif oğlu***
***Bədən tərbiyəsi və idman kafedrasının 07.04.2021 tarixli iclasın 3 saylı pratakol.***
***Daxil olma tarixi 10 aprel 2021-ci il***

**UOT:80.**

# MORFOLOGİYA TƏLİMİNDƏ EKSPERİMENAL MÜŞAHİDƏ: QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR

***dosent Quliyeva Tahirə Abdurəhman qızı***
***Gəncə Dövlət Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:** Şagird tərəfindən nisbətən çətin mənimsədilən nə ola bilər? Bu çətinliyin konkret olaraq necə aradan qaldırmaq olar? Mənimsəmənin sabitliyinə və yaradıcı, müstəqil tətbiqetməyə necə nail olmaq olar? Bu kimi suallar müəllimi daima narahat etməli və onun bütün imkanları bu istiqamətə səfərbər edilməlidir.Bu prizmadan yanaşaraq morfologiya bölməsinin nisbətən çətin mənimsənilən mövzularını, interferantiv qarşılaşma, qarışdırma yaradan məsələləri və onların linqvodidaktik problemləri araşdırılır

**Açar sözlər:** Morfologiya, mənimsəmə,yaranan çətinliklər, yaradıcı, müstəqil tətbiqetmə

**Ключевые слова:** Морфология, мастерство, трудности, творческое, самостоятельное применение

**Key words:** Morphology, mastery, difficulties, creative, independent application

Azərbaycan dilçiliyində elmi qrammatikanın təşəkkülü və tədrisi məsələləri B.Çobanzadə, M.Şirəliyev,M.Hüseynzadə, F.Zeynalov, Z.Budaqova, Y.Seyidov,Ə.Abdullayev, H.Mirzəzadə, A.Abdullayev, A.Qurbanov, H.Mirzəyev, V.Əliyev, B.Xəlilov, Ə.Tanrıverdiyev və s. kimi alimlərin adları ilə sıx əlaqəlidir. Ümumən morfologiyaya aid tədqiq və araşdırmalarda sual doğuran cəhətlər çoxdur. Hələ də sifətlər fe'llə əlaqəyə girdikdə adverbiallaşma zərf kimi izah olunur. Eyni şəkilçilər adlara artırıldıqda xəbərlik, feillərə artırıldıqda şəxs şəkilçiləri adlandırılır. Nitq hissələrinin təsnifində sintaktik prinsip üstün tutulur və eyni sözlər yerinə görə say və zərf, sifət və zərf hesab olunur və s.

Görkəmli dilçi-alim M. Hüseynzadə hal, kəmiyyət, mənsubiyyət və xəbərlik kateqoriyalarını ümumi qrammatik kateqoriyalar adlandırmışdır. Lakin məlumdur ki, heç bir sifət saf halda hallanmaz, mənsubiyyət şəkilçisi qəbul etməz. Hal və mənsubiyyət ismin qrammatik əlamətləridir. Bunların ümumi qrammatik kateqoriya adlandırılması yuxarıda qeyd etdiyimiz prosesi, konkret desək, substantivləşməni nəzərə almamağın nəticəsidir. *İrəli, içəri, geri, yuxarı, aşağı, ora, bura* tipli sözlər mahiyyət etibarilə məkan bildirən isimlərdən fərqlənmir və ismin bütün halları üzrə dəyişir. Bu cür sözlər adlıq, yönlük, yerlik və çıxışlıq hallarında zərf hesab olunursa, yiyəlik və tə'sirlik halda nə olur? Və əgər

bu hallarda həqiqətən zərfdirsə, onda zərflərin də hallanmasından danışmaq lazımdır.Bizcə, bunlar adi məkan mənalı isimlərdir.Əgər məzmunlarında konkret əşyavilik olmadığı üçün isim sayılmırsa, onda gərək *yaxşılıq, gözəllik, qırmızılıq, itilik, acılıq* kimi sözlər də isim hesab edilməsin. Bu cür vahid prinsipin olmaması nəticəsidir ki, hələ də yer zərfləri və yer bildirən isimlər, miqdar zərfi və miqdar sayları, zaman zərfi və zaman bildirən isimlər çox vaxt gözəyarı (və ya sintaktik mövqe əsasında) izah edilir. **(4, s. 331)**

Hal kateqoriyasının göstəricisi şəkilçilərdir. Hallanmada çətinlik yaradan da budur ki, yiyəlik və təsirlik halda olan sözlər də şəkilçisiz işlənib bu suallara cavab verə bilir.Bu vəziyyət yiyəlik, təsirlik hallarda qeyri-müəyyənlik situasiyası yaradır və şagirdlər adətən adlıq, yiyəlik, təsirlik halları qarışdırırlar.”....Ümumiyyətlə, ismin yiyəlik və təsirlik halı bəzi xüsusiyyətlərinə görə oxşasalar da, aralarında kəskin təzad vardır. Hər iki hal müəyyən və qeyri-müəyyən formada təzahür edir. Onların hər ikisinin müəyyən forması şəkilçili, qeyri-müəyyən forması isə şəkilçisiz olur. Hər ikisinin şəkilçili forması aid olduğu sözlə idarə, qeyri-müəyyən –şəkilçisiz forması isə aid olduğu sözlə yanaşma əlaqəsində olur. Hər ikisinin şəkilçisiz forması ümumi isimlərlə ifadə olunub, əsasən, nə? sualına cavab verir. Lakin bu oxşarlıqlara baxmayaraq, bu iki hal arasında aşağıdakı təzadlı məqamlar vardır: 1.Yiyəlik hal sahib şəxs bildirdiyindən ancaq isim və isimləşə bilən sözlərlə əlaqələnir. Təsirlik hal isə, adından da göründüyü kimi, hərəkətin təsir göstərdiyi obyekti ifadə etdiyindən ancaq fellə bağlanır, heç vaxt isimlə əlaqələnmir. Buna görə də yiyəlik hal ismi, təsirlik hal isə feli birləşmənin asılı tərəfi olur.2.Təsirlik hal bir qayda olaraq cümlədə müstəqil üzv-tamamlıq vəzifəsini yerinə yetirir.Yiyəlik halda olan söz isə, demək olar ki, ayrılıqda cümlə üzvü olmur, yalnız mənsubiyyət şəkilçili sözlə birlikdə bir mürəkkəb cümlə üzvü kimi çıxış edir. 3. Yiyəlik hal ancaq xəbərlik şəkilçisi qəbul edərək təklikdə çümlənin ismi xəbəri ola bilir. Təsirlik hal isə heç vaxt xəbər ola bilmir”**(5, s.38).**

Müəllim alqoritmik linqvistik eksperimentlər tətbiq etmək, müqayisələr, morfoloji təhlillər aparmaq yolu ilə anlayışların qarışdırılmadığına əmin olmalıdır. Eksperimental müşahidənin yekunu olaraq şagird dərk etməlidir ki, yiyəlik və təsirlik halda olan söz öz şəkilçisi ilə işlənə bildiyi halda,adlıq halda olan sözə birləşmə daxilində hal şəkilçisi artırmaq mümkün deyildir.Özünü ismə aid oxşar dil faktı kimi göstərən adlıq, qeyri-müəyyən yiyəlik və qeyri-müəyyən təsirlik hallarının fərqli cəhətləri müxtəlif üsullarla açılmalı, aşağıdakı nəticə alınmalıdır:

1.Adlıq hal əşyanın adını, qeyri-müəyyən təsirlik hal üzərində iş icra olunan obyekti, qeyri-müəyyən yiyəlik hal isə yiyəlik, sahiblik, aidlik məzmununu itirərək, qeyri-müəyyənlik anlayışını bildirir.

2.Qeyri-müəyyən təsirlik halda olan söz xəbəri təsirli fellə ifadə olunan cümlədə, adlıq halda olan söz təsirsiz feli xəbərli və ismi xəbərli cümlələrdə işlədilir. Qeyri-müəyyən yiyəlik halda olan isim heç vaxt fellə əlaqəyə girmir və özündən sonra gələn mənsubiyyət şəkilçisi qəbul etmiş sözdən asılıdır.

3. Qeyri-müəyyən təsirlik halda olan isim qoşma ilə işlənmir, adlıq halda olan söz isə qoşma ilə işlənir.

4. Qeyri-müəyyən təsirlik və qeyri-müəyyən yiyəlik halda olan halda olan söz xəbər ola bilməz, adlıq halda olan isimsə xəbər kimi çıxış edir.

**5.**Sintaktik vəzifəsinə görə qeyri-müəyyən təsirlik hal yalnız qeyri-müəyyən vasitəsiz tamamlıq, adlıq hal mübtəda və xəbər, qeyri-müəyyən yiyəlik hal isə mənsubiyyət şəkilçili sözlə birlikdə müxtəlif cümlə üzvü olur və s. **(1, s. 207)**

İsmin tədrisində çətinlik yaradan problemlərdən biri də yiyəlik hal (-ın$^4$) və II şəxs, təsirlik hal (-ı$^4$) və III şəxs təkinin mənsubiyyət şəkilçilərinin formaca eyni olmasıdır.Linqvistik eksperimentlərdən, zahiri oxşarlığı aşkar görünən cümlələrin müqayisəli təhlilindən istifadə etməklə aydınlaşdırmaq olar ki, yiyəlik hal göstəricisi (şəkilçi) artdırdığı sözün sahib əşya olduğunu, mənsubiyyət göstəricisi (şəkilçisi) isə sahib əşya

bildirən sözə mənsub olduğunu bildirmək üçün artırır."*Vətənin dardadır;" "Vətənin çörəyi halalın olsun*" – cümlələrində "*vətənin*"sözü şəkilcə eyni olsa da, birinci cümlədə *vətənin sözündəki* **in** şəkilçisi II şəxsin təkinə (sənin vətənin) mənsub olduğun halda, 2-ci cümlədəki *vətənin* sözündəki -in şəkilçisi çörəyin vətənə mənsubluğunu bildirir.Belə bir " yalançı qohumluq" təsrlik halın şəkilçisi ilə III şəxs təkinin şəkilçiləri arasındada da var. Məsələn, *Əsgər silahı təhvil verdi. Əsgərin silahı komandirdədir*- cümlələrində silah sözü **-ı** şəkilçisini qəbul etmişdir.Lakin birinci cümlədə *silahı* sözü *verdi* felinə bağlanmış, idarə əlaqəsinin tələbinə görə təsirlik halda işlənmişdir.İkinci cümlədə *əsgərin silahı* təyini söz birləşməsi yaranıb və silahı sözündəki **-ı** şəkilçisi III şəxs təkinin göstəicisidir. Əgər bu cümlədəki *silah* sözlərini saitlə bitən sözlə əvəz etsək təsirlilik halda **"n"**, III şəxsin təkində isə "s" bitişdiricisi *boxça-n-ı,boxça-s-ı)* artırılacaq.

İsmə məxsus xəbərlik şəkilçiləri ilə felə məxsus şəxs şəkilşiləri qarışdırılır və eyniləşdirilir.Əslində bunlar arasında bir oxşarlıq, yaxınlıq, uyğunluq var.Xəbərlik şəkilçiləri adı ilə tanıdığımız şəkilçiləri eynilə şəxs şəkilçiləri sırasında da görürük. Lakin bu, onları qarışdırmağa heç də əsas vermir. Əslində həm şəxs, həm də xəbərlik şəkilçiləri şəxs əvəzliklərindən formalaşsa da, şəxs şəkilçiləri daha rəngarəngdir.Bundan başqa şəxs şəkilçiləri onsuz da cümlədə xəbər olacaq təsriflənən felin mübtəda ilə şəxsə və kəmiyyətə görə uyğunlaşmasını-uzlaşmasını həyata keçirir.Xəbərlik şəkilçiləri isə üzərinə daha çox vəzifə götürərək cümlədə digər sintaktik vəzifənin daşıyıcısı olan ismin (və ya isimləşə bilən sözün, birləşmənin) həm xəbər olmasını reallaşdırır, həm də onun mübtəda ilə şəxsə və kəmiyyətə görə uyğunlaşmasını həyata keçirir **(5, s.42-43).** Çalışma üzərində iş, müqayisə priyomu, xüsusilə morfoloji təhhlil yolu ilə xəbərlik şəkilçiləri haqqında düzgün məfhum yaratmaq və onlardan istifadə ilə baglı bacarıqlar aşılamaq əsas didaktik məqsəd olmalıdır **(1,s.208).**

Mənimsəmədə şagirdlər bəzən sifətin dərəcələri ilə düzəltmə sifətləri qarıdırırlar.Lügəvi mənanın *(sarımtıl, sarımtraq)* dəyişmədiyini dəqiqləşdirməklə bu çətinliyi aradan qaldırmaq olar.Azaltma dərəcəsi şəkilçilər (raq,sov,mtraq); sifətin əvvəlinə *ala, açıq,* sonuna təhər sözlərini yanaşdırmaqla yaradılır.Çoxaltma dərəcəsi isə -sa$^2$ şəkilçisi, *lap, ən,çox, daha* ədatlarını sifətin əvvəlinə yanaşdırmaqla və xüsusi yolla yaradılır.Çoxaltma dərəcəsini yaratmağın bir xüsusi yolu da var ki, bu sifətlərin təkrarlanması və sifətlə müvafiq əşyanın müqayisəsinə əsaslanmaqla yaranır.Məsələn, *dadlıdan dadlı, gözəldən gözəl, ucadan-uca, kömürdən qara* və s.Sifətin çoxaltma dərəcəsini yaratmaq variantlarından biri də ***m,p,r,s*** samitlərinin sifət kökündəki ilk hecanın saitindən sonra artırmaqla yaradılmasıdır. Mətnlərdə *düm(bə)düz, sap(pa)sağ* kimi sifətlərə rast gəlindikdə müəllim bunu qədim ba ədatənın fonetik dəyişmələri ilə izah edə bilər.Bundan başqa, müəllim diqqətdə saxlamalıdır ki**,-ca$^2$,- raq$^2$** şəkilçiləri sifətin azlığını *(xırdaca, gödərək)* çoxluğunu (*yekəcə*) yarada bilər. Burada dərəcəni müəyyənləşdirmək üçün lüğəvi-semantik mənaya fikir vermək lazımdır.

Müəyyən miqdar sayları mənimsədilərkən diqqət **bir** sayının üzərinə yönəldilməlidir. Morfoloji və sintaktik təhlillər zamanı bir sayının mənalarda işlənməsi çətinlik yaradır.Müəllim *bir* sözünü müxtəlif cümlələrdə işlətməklə şagirdlərin diqqətini sintaktik və üslub fərqliliyinə cəlb etməlidir.Məsələn, *Ürəkbulandırıcı bir vəziyyət idi.Ayının min bir oyunu var, bir armudun başında, Bir yandan dost deyirsən, bir yandan da işimi pozursan* – cümlələrində *bir* sözü yalnız *bir armudun başında* ifadəsində miqdar sayı kimi işlənib, digər hallarda say deyildir.Qeyri-müəyyən saylarsa müəyyən miqdar sayları ilə müqayisədə ğyrənilməli, həm isimlərdən əvvəl gəlib qeyri-müəyyənlik yaradan sözlər *(az, çox, xeyli, bir qədər, bir az və s.*), həm də müəyyən miqdar saylarına şəkilçilər artırmaqla yarananlar (onlarla, minlərlə, yüzlərcə, milyonlarca) paralel təhlillərdə aydınlaşdırılmalıdır. Müəllim bu məqamda təlimi elə qurmalıdır ki, şagirdlər gələcəkdə *xeyli, çox, az, bir qədər* sözlərini hərəkətdən əvvəl gələn miqdar zərfləri ilə *(xeyli danışdı, az oynadı, bir qədər mızıldandı*)

qarışdırmasınlar **(1,s.211-212)** Dilimizdə bir sıra sözlər vardır ki, onların məzmununda kəmiyyət anlayışı ifadə olunur. Belə sözlərə *həftə (7 gün), ay(30 gün), il (365 gün), qərinə (33 il), əsr (100 il), şahı (5 qəpik), abbası (20 qəpik), arşın (71 santimetr), girvənkə (400 qram), çərək (dörddə bir hissə), batman (8 kiloqram), misqal (42* qram*),* manat və s. *misal göstərmək olar. Bu sözlərin bir qismi hazırda dilimizdə arxaikləşmişdir (şahı, abbası, ağac, mil, arşın, girvənkə* və s.). Belə sözlərin məzmununda kəmiyyət ölçü, miqdar anlayışı olsa da, onlar say deyil, isim hesab olunur **(6, s.69)**

V sinifdə şəxs, işarə, sual, qeyri-müəyyən əvəzliklər öyrədilir. Şəxs əvəzliyi kimi mənimsənilən ***o*** sonra işarə əvəzliyinin atributu kimi də çıxış edir və ikili funksiya daşıyır.Məsələn, *Yenə o bağ olaydı, yenə yığışaraq siz o bağa köçəydiniz* (M.M), O, bütün zamanların şairidir- cümlələrində birinci cümlədəki *"o"*lar işarə, ikinci cümlədəki *"o"* isə şəxs əvəzliyidir. Morfoloji suallar (hansı?, kim?) verçəklə və sintaktik əlamətə görə (təyin, mübtəda) onları fərqləndirmək mümkündür.İşarə əvəzliklərindən danışarkən təkcə *o, bu* deyil, *elə, belə* əvəzlikləri üzərində də iş aparmaq lazımdır.Qeyri-müəyyən əvəzliklərin mənimsədilməsində ikili vəzifəyə sahib *kimi, biri, kimsə* sözləri də dəqiq müqayisələr, xarakterik misallar, məntiqi mətnlər üzərində iş qurmaqla mənimsədilməlidir.

Felin tədrisində də şagirdlər müəyyən problemləri qarışdırır, çətinliklərlə rastlaşırlar.Məsələn, müəllim təsirlilik kateqoriyasını düzgün mənimsədə bilsə məlum fellərin təsirli və təsirsiz, məchul qayıdış, qarşılıqlı, müştərək növ fellərin təsirsiz, icbar növ felin təsirli olmasında çətinlik çəkmədən mənimsədəcəkdir. Yeri gəlmişkən qeyd edək ki, təsirli və təsirsiz felləri mənimsətmək üçün yalnız morfoloji bazaya əsaslanmaqla yanaşı, sintaktik müqayisələrdən də istifadə edilsə mənimsəmə effektli olar.Müəllim yuxarıda deyilənlərin mahiyyətini bütün dəqiqliyi ilə şagirdlərə çatdırmaq üçün mübahisəli misal və şəkilçilərə daha çox yer verilən mətnlər,çalışmalar üzərində işi gücləndirməlidir.

Felin məna növlərini mənimsətmək üçün "*hərəkət",*"*hərəkət icraçısı"* və *"onların arasındakı münasibət*" semantik-qrammatik anlayışlar kimi şagirdin diqqətini cəlb etməlidir.Məsələn, məchul növlə qayıdış növün hər ikisində icraçılar məlumdur (qapı açıldı, hava açıldı) və hər ikisi eyni şəkilçilərlə düzəlib.Amma birincidə (qapı açıldı) obyekt subyekti məchullaşdırır, ikincidə isə (hava açıldı) subyekt obyekti əvəz etmişdir.İcbar növün morfoloji əlaməti olan–dır$^4$ şəkilçisinin həm də xəbərlik şəkilçisi olması, **-ış$^4$,-aş$^2$,-ş** şəkilçilərinin qarşılıqlı və müştərək növlərin formal əlaməti, həmşinin sözdüzəldici şəkilçi olması da sistem halında öyrədildikdən sonra spesifik əlamətlər mətnlər, çalışmalar vasitəsilə aydınlaşdırılmalı və mənimsədilməlidir.Müqayisəli morfemlərin bol olduğu tapşırıqlar üzərində elə qurulmalıdır ki, müqayisələrdə şagirdlərin özləri daha fəal ilsunlar.

Felin formaları (orta məktəbdə felin şəkilləri adlanır) daha çox zamana,şəxsə və kəmiyyətə görə dəyişmələrlə əlaqəli olduğu üçün onlaral bağlı materiallar təkrarlanmalı, təsriflənən və təsriflənməyən formalar mənimsədilməlidir. Felin əmr və xəbər formalarının özünəməxsus morfoloji göstəriciləri yoxdur və bu əlamətsizlik, əslində, onların əlamətidir.Əmr və xəbər formalarını fərqləndirən cəhət isə əmr şəklinin zamana görə dəyişə bilməsidir.Əmr formasının bir xarakterik cəhəti də odur ki, o, ikinci şəxsin təkində şəxs sonluğu qəbul etmir.Bundan əlavə əmr forması şərt, vacib, arzu formalarının sinonimi olmaq kimi üslubi xüsusiyyətlərə də malikdir. Arzu və lazım formalarını öyrəndikdə isə, ilk növbədə, arzu və lazım anlayışları arasındakı məna fərqləri və yalnız arzu formasında olan sözlərə artırıla bilən *gərək* sözünün məna çalarları üzərində işlətmək lazımdır.

Feli sifətlər də məktəb kursunun ən çətin mənimsənilən mövzulardandır. Onların fellə, sifət, feldən düzələn sifətlə müştərək əlamətlərinin çox olması mənimsəmə işini çətinləşdirir.Feli sifət əşyanın hərəkətlə ifadə olunan əlamətini bildirib fellik mənası (*ürkən at)* ifadə etməklə bərabər, əlaqədar olduğu məfhumun – "*at*" ın da əlamətini aydınlaşdırır.Feli sifətlər həm fel, həm də sifətlə düzgün, dəqiq müqayisədə mənimsədilə bilər. Feli sifətlər fellər kimi təsdiq və inkarda (*gülən-gülməyən, gülür-gülmür*), təsirli və təsirsiz (*səmanı*

*görür-səmanı görən, yer titrəyir-yeri titrədən*) olur, müxtəlif növ şəkilçilərini (*vurulan zərbə, vuruşan adam, vuruşduran kişi,vuruşdurulan rəqiblər*) qəbul edir.Feli sifətlərin fellər kimi zamana və şəxsə görə dəyişə bilməməsi, bağlı olduğu sözdən əvvəl gələrək yanaşma ılaqəsi vasitəsilə əlaqələnməsi, *nə etdi? nə edir? nə edəcək?* deyil, *necə? nə cür? hansı?* suallarına cavab verməsi, əsasən cümlənin təyini vəzifəsində işlənməsi onları bir-birindən fərqləndirən cəhətlərdir.Sifətə xas olan əlamətlərin feli sifətlərdə də olması onları yaxınlaşdıran cəhətlərdirsə, onları fərqləndirən cəhətlər də az deyildir.Feli sifətlərdən fərqli olaraq sifətlərdə hərəkətin əlamətini bildirəcək xüsusiyyət, feli sifətə məxsus kateqoriyaları özündə əks etdirmək və özünü əlamətləndirmək cəhətləri yoxdur. Müəllim gələcəkdə sintaksis təlimi üçün böyük təlimi əhəmiyyəti olacaq feli sifət əmələ gətirən şəkilçilərini də *(-an*$^{2}$*, -mış*$^{4}$*,-acaq*$^{2}$*,-malı*$^{2}$*,-ası*$^{2}$*,-dığı*$^{4}$) unutmamalı, iki vəzifəli – *mış*$^{4}$*,-acaq*$^{2}$*,-malı*$^{2}$*,-ası*$^{2}$ şəkilçiləri üzrə işlərə xüsusi diqqət yetirməlidir **(1, s. 216).**

Feli sifətlər də sifətlər kimi isimləşərək hal, kəmiyyət, mənsubiyyət və xəbərlik şəkilçilərini qəbul edə bilir. Lakin feli sifət sifətə məxsus bu əlamətləri qəbul edərkən fellik xüsusiyyətlərindən heç də uzaqlaşmır. Bu sözləri asanlıqla inkarda işlətmək, növlər üzrə dəyişmək və s. olur. Məsələn, *açan çiçək-açmayan çiçək, açılmayan qapı, açdıran adam* və s.Digər tərəfdən, feli sifət əşyanın mövcud zamandakı hərəkətilə bağlı əlamətini bildirir. Feldən düzələn sifətlərdə isə kök fel olsa da, heç bir fellik xüsusiyyəti müşahidə edilmir və bu cür sözlər əşyanın daimi əlamətini bildirir. **(5, s.49)**

Feli bağlamalar əlaqədar olduğu əsas felin ifadə etdiyi hərəkəti zamana və tərzə görə aydınlaşdırır.Deməli, onun fel və zərflə də müştərək və fərqli cəhətləri var.Mənimsədilməyə fellə olan ümumi cəhətlərin öyrədilməsindən başlanılmalıdır. Feli bağlamaların tərkib yarada bilməsi, söz yaradıcılığında çıxış edə bilməməsi, hərəkət zamanında icra tərzini bildirməsi onu əsas feldən fərqləndirən cəhətdir. Feli bağlama zərf kimi fellərlə yanaşma, özündən əvvəlki sözlə idarə əlaqəsi ilə münasibətdə olur, felin hərəkətini izah edir.Şagirdlərə yeri gəldikcə nümunələrlə göstərilməlidir ki, feli bağlamalar bağlayıcıları da əvəz edir və tərkiblər yarada bilirlər.

Zərfin ən çox oxşadığı nitq hissəsi sifətdir və zərfin tədrisinə də onun detalları ilə başlamaq lazımdır.Hətta hərəkətin keyfiyyətini bildirən tərzi-hərəkət zərfləri morfoloji sualına görə sifətlərlə bəzən eyniləşir. Məsələn, *yaxşı, gözəl,qəşəng* kimi sözlər cümlədə həm sifət, həm də zərf sayılır **(1,s.218).**Tərz zərfləri işin, hərəkətin icra tərzini, hərəkətin və əlamətin keyfiyyətini bildirir, necə? nə cür? nə halda? nə tərzdə? nə vəziyyətdə? suallarından birinə cavab verir**.** Məsələn*, Onu bir dost kimi sevincək qarşıladı. (F.Kərimzadə) Baharın dəftərini səssizcə ürəyimdə oxuyurdum. (İ.Hüseynov)* və s**. (3, s. 316)**. Zərf feli sifət və feli bağlamalarla müqayisə olunmalı, şagirdlərə mənimsədilməlidir ki, zərf həm də əlamətin əlamətini bildirir.Məsələn, *danışan adam-çox danışan adam, nəzərdən keçirdikdə - diqqətlə nəzərdən keçirdikdə)* Zərfin qrammatik mahiyyəti bilindikdən sonra onun quruluşca və mənaca növləri) haqqında məlumat vermək və təmrinlərlə mənimsədilmiş məlumatları möhkəmləndirmək olar **(1.s,219).**

Orta məktəb dərsliklərində qoşma, ədat, bağlayıcı, modal sözlər və nida köməkçi nitq hissəsi kimi tədris olunur. Modal sözlər və nidalarla orta məktəbdə morfologiya tədrisində yekun vurulur.

### *Ədəbiyyat*

1.Balıyev H. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası.Bakı, 1996
2.H.Balıyev.A.Balıyev. Azərbaycan dilinin tədrisi metodikası.Bakı, 2014
3. Q.Kazımov . Müasir Azərbaycan dili. Morfologiya.Bakı, 2010.
4. G.Abdullayeva.Müasir Azərbaycan dili.II hissə (Morfologiya, sintaksis) B-2013
5. Müasir Azərbaycan dili.“Morfologiya” II hissə,EA-nın nəşri, Bakı, 1980.
6. Ə. Fərəcov. Qrammatik məfhumların mənimsədilməsi, Bakı, 1973.
7. İ.Bayramov.Azərbaycan dili morfologiyası tədrisinin elmi metodik əsasları. Bakı, 1983

## ЭКСПЕРИМЕНТАЛЬНОЕ НАБЛЮДЕНИЕ В МОРФОЛОГИЧЕСКОМ ОБУЧЕНИИ: ВОЗНИКШИЕ ТРУДНОСТИ

***Гулийева Тахира Абдурахман***

***Резюме***

Что может быть относительно сложно освоить ученику? Как именно решить эту проблему? Как добиться стабильности мастерства и творческого, самостоятельного применения? Такие вопросы всегда должны волновать учителя, и все его ресурсы должны быть мобилизованы в этом направлении.

## EXPERIMENTAL OBSERVATION IN MORPHOLOGY TRAINING: DIFFICULTIES ENCOUNTERED

***Guliyeva Tahira Abduraxman***

***Summary***

What can be relatively difficult for a student to master? How exactly can this problem be overcome? How to achieve mastery stability and creative, independent application? Such questions should always be of concern to the teacher and all his resources should be mobilized in this direction.

***Rəyçi dos. Gulrux Hüseynova***
***Azərbaycan dili kafedrasının 18 mart 2021-ci il tarixli onlayn iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 19 mart 2021-ci il***

**UOT:796.**

## SƏHƏR GİMNASTİKASININ QURULUŞU, MƏZMUNU VƏ KEÇİRİLMƏ METODİKASI

***Rəhimova Rəmziyyə Sadəddin qızı, Quliyeva İlhamə Əlixan qızı***
***Gəncə Dövlət Universiteti***
***ilhameguliyeva407@gmail.com***

**Xülasə:** *Məktəbəqədər müəssisələrdə səhər gimnastikası fiziki tərbiyənin təşkili formalarından biri olub sağlamlıq və tərbiyə məsələlərini həll etməyə kömək edir.*

*Səhər gimnastikasının keçirilməsində əsas məqsəd sağlamlığın möhkəmləndirilməsi, düzgün fiziki inkişaf, uşaqların qamətinin formalaşmasıdır. Onun sağlamlaşdırıcı əhəmiyyətindən başqa, bir sıra tərbiyə məsələlərinə: gün rejiminə mütəşəkkil başlamağa, təmrinləri gündəlik yerinə yetirmə vərdişi aşılamağa, uşaqları intizamlı olmağa, kollektivlə razılaşaraq birgə oynamağa kömək edir.*

*Səhər gimnastikası kompleks hərəkətləri artan çətinlikləri nəzərə almaqla həftəlik tərtib edilir. Buraya əvvəlki məşğələlərdə bütün əzələlərin inkişafı üçün öyrədilmiş və uşaqların gərgin diqqətini tələb etməyən hərəkətlər daxil edilir.*

*Uşaq bağçasında səhər gimnastikası rejimin əsas hissəsi olub hər gün səhər yeməyindən qabaq keçirilir. Səhər gimnastikası yayda, payızın axırına kimi meydançada–açıq havada, yağışlı havada isə üstü örtülü yerdə və bina daxilində keçirilir. Qış aylarında səhər gimnastikasında səhər gimnastikasını keçirmək üçün idman zalından və ya qrup otağından istifadə edilir.*

**Açar sözlər:** məşğələ, fiziki inkişaf, gimnastika, məktəbyaşlı uşaqlar, hərəkət, yeriş, qaçış

**Key words:** occupation, physical development, gymnastics, children, school age, traffic, gait, run